## Aksizlər

Cari ilin yanvar-fevral aylarında aksiz vergisi üzrə düvlət bğdcəsinə 70,2 milyon manat vəsait daxil olmuşdur. Bu, ütən ilin müvafiq dövrü ilə müqayisədə 40,2% artım deməkdir
Aksizin iqtisadi mahiyyəti
Aksiz - aksizli malların satış qiymətinə daxil edilən, aksizli malları istehsal edən vergi ödəyicilərindən tutulan vergidir. Bütün dolayı vergilər kimi aksizlər də əmtəənin qiymətini formalaşdırır və faktiki olaraq onun ödənilməsi alıcının üzərinə keçirilir. Formal olaraq bu verginin ödəyiciləri aksizli məhsul istehsal edən müəssisələrdir. Lakin aksizin məbləği əmtəənin qiymətinə daxil edildiyindən, faktiki olaraq, onun ödəyiciləri aksizli malların istehlakçılarıdır. İqtisadi mahiyyətinə görə aksizlər yüksək rentabelli məhsul istehsalından əldə edilən əlavə mənfəətin bir hissəsinin dövlət büdcəsinə tutulmasıdırsa, digər tərəfdən sosial cəhətdən sağlamlığa zərərli malların istehlakının məhdudlaşdırılması məqsədilə tətbiq edilir. Aksizləri digər vergilərdən fərqləndirən əsas cəhətlərdən biri bu verginin məhdud  sayda,  qanunvericilikdə «aksizli» adlanan mallara tətbiq edilməsidir. Azərbaycanda 1992-ci ildən tətbiq edilən aksiz vergisi ƏDV ilə birlikdə dövriyyədən vergini əvəz etmişdir.

*Daxilolmalar*
2011-ci ildə dövlət büdcəsinə  aksiz vergisi üzrə 416 milyon manat proqnoza qarşı 417,4 milyon manat (100,3%) vəsait daxil olmuşdur. Bunun 18 milyon manata yaxınını qeyri-neft-qaz  sektoru üzrə daxilolma təşkil edir ki, bu da proqnozdan (16,5 milyon manat)  1,4 milyon manat (8,7%) çoxdur. Bu göstərici 2010-cu illə müqayisədə 279, 7 min manat (1,6%) artım deməkdir. 2012-ci ilin yanvar-fevral ayları üzrə 62,5 milyon manat proqnoza qarşı 70,2 milyon manat (112,4%) vergi daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 20,1 milyon manat (40,2%) artım deməkdir.
Azərbaycanda aksiz vergisi tətbiq olunduğu vaxtdan bəri aksizli malların siyahısı bir neçə dəfə dəyişmişdir. Lakin hər dəfə bu siyahıya alkoqollu içkilər və tütün məmulatları daxil edilmişdir. Aksiz vergisinin tarixi də məhz bu iki məhsul növünün istehsal olunduğu vaxtdan başlayır. İnsan orqanizmi üçün zərərli məhsullara aksiz vergisinin tətbiq edilməsinə baxmayaraq, bu məhsulları qanunsuz satan sahibkarlara həmişə təsadüf edilir. Vergilər Nazirliyi tərəfindən mütəmadi olaraq həyata keçirilən operativ nəzarət tədbirləri nəticəsində aksiz markası ilə markalanmamış və ya saxta aksiz markası ilə markalanmış mallar aşkar olunaraq məhv edilir.

*Aksizli mallar üzrə həyata keçirilən operativ nəzarət tədbirləri*
2011-ci il ərzində aksiz markalarının tətbiqi qaydalarına əməl olunması üzrə nəzarət aparılmış  787 obyektdən 624-də 24 min manat məbləğində 9,8 min ədəd aksiz markaları ilə markalanmamış və ya saxta markalarla markalanmış tütün məmulatı və alkoqollu içkilər aşkar edilmişdir. «Məhkəmənin qərarı ilə müsadirə edilmiş aksiz markası olmayan və ya saxta aksiz markaları ilə markalanmış malların satışının təşkili Qaydaları»na əsasən, təhlil olunan dövr ərzində 15,4 min manat məbləğində  aksiz markası ilə markalanmamış və ya saxta aksiz markası ilə markalanmış mallar satılmış, 15,9 min manat məbləğində isə belə mallar məhv edilmişdir. Dövrün sonuna müsadirə olunmuş malların məbləği 4,9 min manat (1605 ədəd) olmuşdur. Cari ilin fevral ayında keçirilən operativ nəzarət tədbirləri zamanı  35 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış  499 ədəd mal olduğu aşkarlanmışdır.

*Məhkəmə qərarı ilə müsadirə edilmiş*
*malların satışı*
Malların dövlət nəfinə müsadirə olunması haqqında məhkəmə qərarına əsasən, icra sənədini almış vergi orqanı həmin malların yararlı olmasını və bunların topdansatış qiymətini müəyyən edir. Malların topdansatış bazar qiymətləri müəyyən edilərkən malın keyfiyyət və əmtəə göstəriciləri, keyfiyyət sertifikatlarının olub-olmaması, malların miqdarı, malın istehsal edildiyi ölkə, istehsal tarixi, saxlama müddəti və sair nəzərə alınır. Müsadirə edilmiş malların saxlanma müddəti və saxlanma şəraiti nəzərə alınmaqla ilkin qiymətləndirmədən sonrakı 30 gün müddətində satılmadıqda, həmin

malların keyfiyyətində və əmtəə görünüşündə mənfi dəyişikliklər baş verdikdə müsadirə edilmiş malların yenidən qiymətləndirilməsi keçirilir. Yenidən qiymətləndirilmə həmin malların satışı üçün qəbul edilmiş vergi ödəyicisinin anbarında həyata keçirilir. Vergi orqanı müsadirə edilmiş malların tez satılmasını, onların anbarlarda və ticarət obyektlərində yığılıb qalmasını istisna edən qiymətləndirmə siyasəti yürütməyə borcludur. Vergi orqanı müsadirə edilmiş malların satışını tütün və spirtli içkilərin satışı üçün lisenziyası olan vergi ödəyicilərinə məxsus ticarət obyektlərində təşkil edir. Satıcı müsadirə edilmiş malların satışına könüllülük əsasında cəlb edilir. Vergilər Nazirliyi ildə bir dəfə belə satıcıların siyahısını təsdiq edir. Satış üçün verilmiş mallar satıldıqca əldə olunan vəsait satıcı tərəfindən məhkəmə orqanının qərarında göstərilən hesaba köçürülür. Satıcı müsadirə edilmiş malların qəbul edilməsi və satılması haqqında vergi orqanına hər ay üçün növbəti ayın 10-na qədər hesabat verir.

**Arzu İBRAHİMOVA**